# TÜRKAY

aylıq ədəbiyyat dərgisi




Fevral 2024 il 2 say 14

## BU SAYIMIZDA


Mahirə Nağıqızı / Qayada Bitən Çiçək / 3
Bənövşə Mahmudqızı / Zamanım Var / 4
Meryem Küçük / Kadın ve Kilit / 5
Beyhan Gözükara / Anılarım / 6
Nazilə Məmməd Zəfərli / Döyüşlərdə Zəfər Çalın / 7
Lutviyyə Əsgərzadə / Külləmi Oynayırsan / 8
Esmira Güneş / Pınar / 9
İlahə İbrahimi Fərd / Yarpaq / 10
Halise Tekbaş / Çok Özledim / 11
İlâf Köprülü / Hatıramdaki Bayram / 12
Nihâl Mirdoğan / Kerkük / 14
İlahə Bayundur / Niye Gelmedin? / 15
Zəhra Həsimova Elman / Afaq Məsud'un Hekayələrində Ekzistensializm / 16
Mələk İsmayıl / Ay Şeir / 19
Səbinə Yusif / "Sən Mənim Duamsan" / 20
Ayşe Ünüvar / İçiyle Yol Bulanlardan Ol / 22
Go'zal Ismatova / Taqdır Azal / 23
Mətanət Hüseynxanqızı / Nəğmələşər Bu Dünya / 24



TÜRKAY
aylıq ədəbiyyat dərgisi
Baş redaktor Lütviyyə Əsgərzadə
Məsul katib Meryem Küçük Sosial yayına məsul Sona İntizar
Üz qabığı rəsmi Omar Esstar
E mail turkayedebiyat@gmail.com
Fevral 2024 il 2 say 14

## Mahirə Nağıqızı

# Qayada Bitən Çiçək

Qayada bitən çiçək,
Qədrini kim biləcək?
Yüz baxanın olacaq,
Bəs səni kim dərəcək.

Qayada bitən çiçək,
Kaş ki, qaya döşündə
Görməyəydim səni mən,
Yerin deyilmi çəmən?

Qayada bitən çiçək,
Sən mələksən, ya çiçək?
Şehin gözün yaşımı?
Axıb nə bitirəcək
Qayada bitən çiçək
Qədrini kim biləcək?

**Bənövşə Mahmudqızı**

# Zamanım Var

Qanatmayım yaramı,
Vurmayın insanlarla aramı.
Səbr edirəm, əzm edirəm,
Sevirəm, insanları sevirəm.
Bu axmaqcadır...
Elə insanlara görə...
Göz görə-görə
Ola bilmirəm biqeyrət.
Sizi bürüsə də heyrət,
İnsanlıqdan çıxıb,
İnsanları qınayıb,
Arsız-arsız demirəm,
“ İnsanlıq hanı? “
Qanatmayın yaramı
deyirəm,
Yara bir mi, iki mi...
İllərin birikimi...
Don vurmuş arzuları
Alovlandırmayın.
Kaş, axı, niyə...
Dönmək olmur geriyə.
Qanatmayın yaraları,
Qırmayın qanadları,
Uçmağa yerlərim var,
Qaçmağa yerlərim var,
Əsl insan olmağa
Xoşbəxt olmasam belə,
Zamanım var?!

## Meryem Küçük

# Kadın ve Kilit

kendi kollarında tutsak
bu taşlar kimin
bakırdan titreşim
rüzgârla gelen tohumlar
dolar taşar
uçurumların renksizliğinde
gider gelir ,gider gelir
kollarda bir deniz ,ala bira kayık
bir bulut yurtsuz hudutsuz
binlerce iklim
düğümlenmiş kökten
gider gelir ,gider gelir

koyulaşmakta karanlık
kaybolur -bir lambadan
doğan gerçeklik
oysa soğuk olurmuş
gecenin dudakları
bekleyiş saati
çocuk parmakları
kadın ,kilit
pencere kapı
döner durur sonsuzluğa

Beyhan Gözükara

# Anılarım

Her sabah kapımı biraz aralayıp
Girer odama benim anılarım
Bir anda hepsini yaşayıp.
Terk ederler beni bakakalırım arkalarından umutsuzca.

Derler ki hadi bizi yeniden canlandır.
O aşk merdiveninden yavaş, yavaş tırmandır.
Biz seni mutluluğun zirvesine çıkartır.
Tekrar bırakırız seni yere derler usulca.

Ah benim güzel anılarım, anılarım, anılarım.
Bükülse belim ağarsa saçlarım.
Istırapla geçse de bundan sonraki yıllarım.
Ben yinede sizleri hatırlarım, hatırlarım, hatırlarım.

## Nazilə Məmməd Zəfərli

# Döyüşlərdə Zəfər Çalın

Uca Rəbbim, köməyi ol özün qoru qardaşları,
Düşməninə eyni olub hədəfləri, baxışları,
Azərbaycan sevincinə, kədərinə ortaq olan,
Türkiyədir bizə hər an candan yanan.

Azərbaycan solum olub, Türkiyə də sağım mənim
Vuran qəlbim, görən gözüm, damarımda qanım mənim.
Hər an sizi qoşa görək ayırmasın Allah sizi,
Döyüşlərdə zəfər çalın, sevindirin, qardaş, bizi.

Çox ölkələr bu dostluğa köks ötürür, qibtə edir,
Boz qurd bizim ləqəbimiz, deyim bunu, hər kəs bilir.
Dilimiz bir, dinimiz bir, dövlətimiz Turan olub,
Döyüşlərdə zəfər çalın, qalib deyək türküm olub.

Tarix boyu əzəlindən yollarımız qoşa olub,
Canı candan, qanı qandan, sirdaş olub, qardaş olub,
İllər boyu bu dostluğu yaşamışıq, yaşatmışıq,
Döyüşlərdə zəfər çalın, şükür edək qazanmışıq.

## Lutviyyə Əsgərzadə

# Külləmi Oynayırsan

Mənə gülüm  deyənim,
Gülləmi, oynayırsan?
Mən yanıb кül olmuham
Külləmi,  oynayırsan?

Bir gül idim, solmuşam,
Şaxta vurub, donmuşam.
Əl vursan,  töküləsəm,
Param - parça olmuşam.

Gözümdə yaz yağışı,
Əynimdə qəmdən köynək.
Yadımdan çıxıb gülmək,
Qəmləmi    oynayırsan

Dəyişmədin   donunu,
Əvvəldən  beləsən Sən.
Külümə də od vurub ,
Sovurmaq istəyirsən?

Sona çatır  deyəsən,
Bu dünyaya səfərim.
Çatacaq sənə  nəsə...
Vəsiyyətim,  gileyim?

## Esmira Güneş

# Pınar

Sabah erkenden uykuya daldım. Endişelendiğinde uyku gözlere yabancıdır. Sabah 7'ye kadar çalıştı. Çocuklar uyanana kadar kitap okumaya karar verdim. Sadıg Garayev'in "Sarvansız zamaklan" kitabını elime aldım ve kaldığım yerden okumaya başladım. Çayırın Hatıraları'nı okurken gördüğüm rüyalar beni çocukluğuma götürdü. Uzun zamandır neredeyse unuttuğum çayır günlerimiz gözümün önüne geldi. Annem Daşkasa'nın Zinzahal köyünde. Büyükbabam köyün köy meclisiydi ve büyükannem kollektif çiftliğin başkanıydı. 7 erkek ve 3 kız kardeşi vardı. Zamanla evlendikten sonra çocuklar aynı şehre taşınırlar ve birbirlerinden uzak olsalar bile her yıl yaz tatilinde mutlaka dedelerinin yanında toplanırlardı. Köyün en güzel evi dedemin evi, en büyük bahçesi dedemin bahçesiydi. Çok çalışkan oldukları için bahçenin bakımını kendileri yaparlardı. Köyün merkezinde bulunan ev her zaman misafirlerle doluydu. Köy evleri şehirdeki gibi yüksek taş çitlere sahip olmayacaktı. Komşuların arasına demir veya ahşap bir çit kapatıldı. Aynı zamanda hayvanların bahçeye girmesini önlemek içindi. Köyde sadece bir otobüs çalışacaktı. Şehirde işi olan her kimse sabah saat 5'te hazır olmak zorundaydı. Otobüs dedenin evinin arkasında dururdu. Sabah şehirden gelenler otobüsten iner, şehre gidenler ise koşarak otobüse biner ve yerlerini almaya çalışırlardı. Ayrıca şehirden hediye gönderilen kişi dedenin bahçesine konurdu. Gün içerisinde hediyenin sahibi gelip onu alırdı. Ayrıca bahçede büyük bir topumuz vardı. Büyükbabam bunu kendisi yaptı. Köyün neredeyse bütün kadınları ekmeği dedenin bahçesinde pişirirdi. Bir gün önce büyükannem komşulara yarın ekmek yapacağını söylerdi. Akşam herkes hamuru yoğurup hazırlardı. O gün gece yarısından önce tapınağın başında toplanan tüm kadınlar babagilden bir kase ekmek çıkardılar. Anneannem kütüklerden bir kısmını alıp üzerine çatalla ismimizin baş harflerini yazar, sonra üzerini un ve yoğurtla kaplardı. Kürenin önünde durup heyecanla ekmeğimizin pişmesini beklerdik. Küreden çıkan sıcak ekmekleri dilimleyip üzerine ırmak yağı ve motal peynirini döktükten sonra anneannem ekmekleri bize uzatır ve "git oyna" derdi.

Babamgil'in bahçesinin sonunda, yol kenarında bir pınar vardı. "Karabulag" derlerdi. Köydeki pınarlardan evlere su getirdiler. Bizim yaşımıza uygun küçük şişelerimiz, bidonlarımız da vardı. Anneannem "Hadi, pınardan su getirmemiz lazım" deyince, babaannem sözünü bitiremeden kürenin yanındaki büyük el damından bidonlarımızı alıp pınara doğru koşardık. Kimin daha fazla su taşıyabileceğini görmek için çocuklarla yarışırdık. Kaynağın üzerinde küçük bir dağ vardı. Bazen pınarda kuyruk oluştuğunda o dağa çıkıp, faydalı çiçekler sayılan kekot ve gafelleri toplar, sıramızın gelmesini beklerdik. Akşamları babaannem, pınardan getirdiğimiz suyla semaver kaynatır, dağdan topladığımız çiçeklerle güzel bir çay yapardı. Dereden dere kokusuna dönerken babagilin kapısından geçen köylüler durup avluya girer ve bir bardak smover çayı içtikten sonra yollarına devam ederlerdi.

Babamgil'in ayrıca biçme alanları da vardı. Yazın hayvanlarını yaylaya çıkardıklarında tarlada hasat yapmaya da başlarlardı. Morukhlu, Atyalı vb. Samanlık denilen alanlarda daha fazla yonca olurdu. Bichi'ye gittiğimizde bizi de götürürlerse sevinirdik. Yeşil çimlerin arasında koşup oynuyorduk, bazen yere çömelerek, yamaç boyunca çimlerin üzerinde kayıyorduk. Hatta o meralarda çimenler kesilirken, farklı çiçeklerin kokusu toprağın kokusuna karışınca öyle mükemmel bir koku yayılıyor ki insanın başını döndürüyordu.

Bazen köye yemek kamyonu gelirdi. Vilis marka arabayla daha çok karpuz ve meyve getireceklerdi. Araba evin arkasında durduğunda "karpuz, karpuz" diye bağırıp bahçeye koştuk. Herkes birkaç karpuz yerdi. Paralarını ya nakit verecekler ya da köy ürünleriyle takas edeceklerdi.

Anneannemin dilinde söylemek gerekirse, evin arkasında da bir agarodumuz vardı. Bir bahçeden daha küçüktü. İki meyve ağacı vardı. Büyükannem kalan tarlaya sebze ekti. Agaro'da uyku odamızın penceresi açıldı. Pencerenin önünde demir parmaklık vardı. Kırmızı ahududu fidanı o kadar büyümüştü ki, her sabah uyandığımızda büyükannem pencereyi açar ve bize elinde sulu bir parça kırmızı ahududu verirdi. "Agol, o zaman odadan çık" derdi. Ahududu payımızı yedikten sonra giyinip bahçeye çıktık. Yüzümüzü buz gibi kaynak suyuyla yıkadıktan sonra gözlerimizde uyku kalmamıştı. Kahvaltıda tatlı anneannemizin yaptığı yağların arasına tereyağı ve peynir koymayı ihmal etmezdik.

Akşam meradan sığırlar gelince Sarıkız avluya girdi, hepimiz anneannemin başında toplandık. İneği güzelce yıkadıktan sonra anneannem elimizdeki küçük bardakları ineğin altına alır ve sütü doğrudan bardaklara verirdi. Sütümüzü içtikten sonra ineği rahat sağsın diye anneannemin yanından uzaklaşırdık.

Evin önündeki bahçede çeşitli meyve ağaçları vardı. Köyün meşhur uzun burunlu eriği, ayva elması, kokulu ayva armudu, taş armudu, çayır elması, yuvarlak erik, goyam, orman armudu vb. Bahçenin girişinde çayır elması hızla olgunlaşırdı. Bazen bir ağaca tırmanır, bazen de bir yanağı kırmızı, bir yanağı mavi olan elmayı koparmak için yerden ağaca taş atardık. Taş elmaya çarptığında kendiliğinden düşüyordu. Biz de hızla koşup ağacın altına düşen elmaları toplayıp afiyetle yedik. Bazen büyükannemize bize elma öğretmesi için baskı yapardık. Hacha denilen tahtadan yaptığı aleti eline alır, kavisli ağzıyla dalı bize doğru eğer ve "İstediğin kadar topla" derdi.

Bu anılar 7-8 yaşlarında köyde yaşadığım harika günlerin bir parçasıydı.

Ata ocaklarını korumak gerekiyordu. Büyükanne ve büyükbabalar akrabaları birbirine bağlar. Aileyi güçlü kılar.

## İlahə İbrahimi Fərd

# Yarpaq

İnadından dönmədi
Qüruri heç sünmədi
Rəngini bəyənmədi
Öz sözündən çönmədi

Ağaç qoymur fırlanam
Yeri-göyü dolanam
Hər gün söyləyir mənə
Mən qaydına qalanam

Yarpaq başını əydi
Külək telinə dəydi
Yarpaq dedi küləyə
Kaşki payız gələydi

Döz günəş uzaxlaşsin
Payız bizə ulaşsın
Mən payıza sölərəm
Düyünü özü aşsın

Payiz gəldi haxladı
Bulud doldu ağladı
Yarpaqda yavaş-yavaş
Küləyə bel bağladı

Yarpaq ağacı atdı
Əlin yelə uzatdı
Payizin ağuşunda
Firlandi yerə çatdı

Qorxdu oldu nigaran
Avarə və sərgərdan
Süründü yerdən yerə
Olmuşdu artıq xəzan

Halise Tekbaş

# Çok Özledim

Seni çok özledim, uzak olsan da
Kaç günlük ömrümüz, kaldı desen de
Hayalin bendedir, hiç gelmesen de
Söylemiştim sana, ben gidiyorum

Umudum tükendi geçmiyor yıllar
Senin hasretinden, yüreğim ağlar
Yokluğun kalbime karalarbağlar
Söylemiştim sana, ben gidiyorum

Sevdanın bakışı, hüzündür yüzü
İçimdeki sızı, ağlatır sözü
Pişmanlık duyarken, geçmiyor izi
Söylemiştim sana, ben gidiyorum

Hasretin içimde tükenmez dağlar
Gözümde tütüyor sensizlik yıllar
Döküldü yapraklar, soldu umutlar
Söylemiştim sana, ben gidiyorum

## İlâf Köprülü

# Hatıramdaki Bayram

Siz hiç anımsadıkça kokusunu hissettiğiniz bir günü hatırlıyor musunuz? Peki bir günün kokusu neye benzer, diye düşünmüş müydünüz hiç? Cuma günlerinden etli pilav ve latike[1], cumartesi günlerinden ise sebze yemeği kokusunu almış mısınızdır, bilmem. Ama her bayram için, daha on beş gün öncesinden külçe[2] kokusunu aldığınıza eminim. Benim hatıramdaki bayram da tıpkı bir zamanların klasik rutini olmuş ama 30 yıl sonra mumla aradığım neşeli ve anlamlı bayram günlerinden biriydi…

"Bugün bayramdı[3]
Bir kutu ayrandı[4] "[5]

Orta Yaka'daki[6] toprak evimizin damında babamın yolunu gözlerken, bir yandan sokağımızdan geçen çocukların tekerlemesine bir yandan da camiiden yükselen tekbirlere kulak veriyordum. Yalınayaklarım, tozdan kapkara olmuş topuklarım kimin umurundaydı? Birazdan babam bayram namazından dönecek ve ben de ellerinden öpüp boynuna sarılacaktım. Bayramlığımı vereceği zaman da önce utangaç davranıp geri çevirecek, babam ısrar ettiğinde ise büyük bir sevinçle kabul edecektim. Bir de kız kardeşlerim İpek ve Aynur uyanınca, sokağımızın başındaki oyuncakçının vitrininden haftalardır hayranlıkla izlediğim oyuncak bebeği alabilirdim artık. Sarı saçlı, ela gözlü ve pembe elbiseli bir bebek…

Damımızın duvarından aşağıya doğru sarkan sarı saçlarımı, annemin "İnci? İnci!..", diye bağırmasıyla bir çırpıda toplamıştım. Avludaki pürüzlü merdivenleri nasıl indiğimi hatırlamadım bir an. Mutfağımızın kapısında buldum kendimi.

"Anneciğim!", dedim, heyecanım gözlerimden okunuyordu.

"Tel dolaptan[7] tuzu uzat. Aman bir şeyi kırıp dökme", diyordu annem.

Gerçi tel dolabımızın sürgüleri hep kırıktı. Dolaplardaki tabak çanaklar da ancak bize yetecek kadardı. Arada bir babaannem gelince bir tabağımızı ona ayırır, böylece annemle babam aynı tabaktan yemek yerlerdi.

"Hadi git, kızkardeşlerini uyandır", dedi annem. Sesi biraz öncekinin aksine şefkat doluydu.

Mutfağımızda bir ışık lambamız olmasa da gözlerimde parlayan ışıltı annemin gönlünü aydınlatmış gibiydi.

İpek ve Aynur uyanınca, bir önceki bayramda giydiğimiz elbiselerimizi çıkarıp yer yataklarımızın üzerine sermiştik. Benimki üzerinde ufak ufak papatyalar olan sarı bir elbiseydi. Kolları kısa, yakası yuvarlak, eteği ise kıvrımlıydı. Aynur'unki yeşildi. İpek ise hiç memnun olmasa da eski turuncu elbisesini giyecekti. Bana sorsalar o turuncu simli elbiseyi giymeye bayılır, hiç de memnuniyetsiz olmazdım.

Çok geçmeden babam bayram namazından dönmüş, bayram sabahı sofrası kurulmuştu. Fasulye, pilav ve latike…[8] Bayram yemeğimizi tekerlemeler eşliğinde büyük bir iştahla yemiştik.

"Hecci laqlaq[9] havada
Yımırtası[10] tavada
Gögde[11] taq taq taq eder
Balaları[12] yuvada
Qere qızın[13] suçu yox[14]
Yımırtanın içi yox"

Yemek faslı her zaman gülüşlerimizin eşliğinde biterdi. Biz üç kızkardeştik. Aynur en büyüğümüzdü. Her zaman sessiz ve sakindi. O yıl ilkokul ikinci sınıfa yeni geçmişti. Sınıfının en çalışkan öğrencisiydi. Ben ortanca çocuktum. Okula başlamama henüz bir yıl vardı. İpek ise benden bir yaş küçüktü. Evimizin nazlısıydı.

Babam Kuzey Petrol Şirketi'nde teknisyen olmasına rağmen ülkedeki durumlar dolayısıyla birkaç bin dinarlık[15] maaş alıyor, onu da evin ihtiyaçlarına zar zor yetiştiriyordu. Annem ise genç yaşta işinden istifa etmiş bir bankacıydı. Onun için de çocuklarına bakmak, birkaç bin dinardan daha önemliydi. O zamanlar gözlerimden kaçan şeyleri şimdi daha iyi anımsıyor ve anlıyorum. Annemin neden kek yapmadığını, evimize her ay sadece tek bir muz girdiğini,

1 Kayısı, et ve kuruyemişlerle hazırlanan bir çeşit sulu yemek.
2 Genellikle bayramlar için hazırlanan, lokumlu, cevizli ve hurmalı olmak üzere üç farklı çeşitte yapılan bir kurabiye türü tatlı.
3 Bugün bayramdır.
4 Bir kutu ayrandır.
5 Çocuk oyunu şarkısı, tekerleme.
6 Altunköprü nahiyesinde iki köprü arasında kalan ada.
7 Mutfak dolaplarının eskiden kullanılan türü.

8 Irak Türkmenlerinde her bayram sabahı bayram namazından sonra fasulye, pilav ve latike yemeği yemek bir gelenektir.
9 Hacı leylek.
10 Yumurtası.
11 Gökte.
12 Yavruları.
13 Kara kız.
14 Yok.
15 Irak para birimi.

bizim yorganlarımızın anne ve babamınkinden daha kalın olduğunu… Şimdi daha iyi anlıyorum…

Ellerindeki bardaklardan çayın buğusu yükseldikçe, dalıp gittiğim derin düşüncelerimden sıyrılıp hakikatin ortasında buldum kendimi.

Saate bakıp, "işte şimdi zamanıdır", dedim.

Babam, iki odadan oluşan küçücük evimizin diğer odasına geçmişti. Mutfağımızdan, ocakta ısınan külçelerin kokusu geliyordu. Bir bayram daha büyükannemin evinde, cümbür cemaat yapmıştık külçeleri[16]. Hurmaların tohumunu ayıklayamasam da annem herkese benim ve kızkardeşlerimin külçesi diye ikram edecekti…

Derken babam oturma odasına gelmişti. Üzerinde aşina olduğum şarap rengindeki kareli gömleği ve siyah pantolonu vardı. Masmavi gözleri odanın karanlığını ikiye bölüyordu. Böylece aydınlanan tarafta biz, karanlık tarafta ise kendisi kalıyordu…

"Bayram kadar tatlı kızlarım, hazır mısınız?", diye sordu.

Üçümüz de ayaklanmıştık. Annemin peçetelere sardığı üçer külçeyi çantalarımıza koyup bayram harçlığımızı beklemeye koyulduk. Babam bir an bize bakıp iç sesimizi duymuşçasına dudaklarını bükerek, "haydi gidelim", dedi.

Evden çıktığımızda üç kızkardeş el ele, babamın peşinden sevinçle zıplayıp koşuyorduk. Sokağın başına vardığımızda babam harçlıklarımızı verecek ve vitrindeki oyuncak bebeğe kavuşacaktım.

Lâkin sokağımızdan çıkalı birkaç dakika olmuştu bile. "Eyvah,", diyordum içimden, "harçlığımı alana kadar bekler mi beni?", diye kendi kendimi yiyordum.

Derken oyuncakçının birkaç metre ötesindeki dondurma dükkanında bulmuştuk kendimizi. Babam bize üç dondurma alıp, kendisi de yanımıza oturmuştu. İpek ve Aynur'a bakıyordum. O kadar mutluydular ki, dondurmalarını yerken babamın kendisi için hiçbir şey almadığını fark etmemişlerdi. Geceleyin gördükleri rüyaları anlatıp, uğur böceklerinden ve kelebeklerden bahsediyorlardı. Başımı çevirip oyuncakçıyı görmeye çalışsam da mümkün değildi. Dondurmamdan birkaç kaşık yedikten sonra babama uzattım.

"Boğazım", dedim, "yedikçe boğazım acıyor, sen ye babacığım."

Babam başımı okşuyor ve iyi hissedip hissetmediğimi soruyordu. O an için aklıma başka bir şey gelmemişti ve bayram yerine gitmeden eve dönmeyi istemediğimden defalarca iyi olduğumu söylemiştim.

Bayram yeri Altunköprü'de iki ayrı yerde kurulurdu. Birisi Orta Yaka'da, diğeri ise Salahiye'deydi[17]. Evimize yakın olduğundan biz hep Orta Yaka'dakine giderdik. Nuh Gemisi'ni Adnan amca, salıncakları ise Kenan amca yönetirdi. Hele ki bayramın ilk sabahı, haşır yeri gibi kalabalık olurdu. Bayram yerinde iyice ter döktükten sonra bayramlaşmak için ilk adresimiz babaannemin evi olurdu. Daha sonra halalarım, teyzelerim, anneannem ve amcamlar… Geleneklerimiz ve alışkanlıklarımız hiç değişmemişti. Altunköprü'de bayramlar hep bir başka kutlanırdı. Bayram hazırlığı bile bizim için bir şenlik niteliği taşırdı. Haftaların yorgunluğunu bir günde yaşar, yılların mutluluğunu da bir haftada tadardık. Komşular arasında bayram temizliği için hurma süpürgesi[18] ve tatlılar için de külçe kalıpları değiş tokuş edilirdi. Kimse şaşanın ve gösterişin peşinde olmazdı. Hâl böyle olunca da ekmeğin bereketinden, komşuluğun ve akrabalığın gerektirdiği iyi ilişki ahlâkından hayır ve sevgi başlarına yağardı[19]. Nahiye halkının pek kıymet verdiği bir diğer husus da, millî değerlerdi. Böylece erkekler bayram namazlarına bile hem bir gelenek olduğu için hem de değerlerine sahip çıktıkları için zubunlarını[20] giyerek katılırlardı.

Nahiyenin bütün çocukları bayram yerinde eğlenmeyi hak ediyordu. Oyuncak dediğimiz paslı demirler üzerine oturduğumuzda, aslında bayram yeri dediğimiz çöplüğün hakiki yüzünü göremezdik. Çocukluk hep böyle değil miydi zaten? Güzellikleri ve şenlikleri görmeyi öyle çok arzulardık ki, bu bir çöplüğün içinde bile olsa onu sevinçle karşılar, kabul ederdik.

O sabah bunu kabul etmekte biraz zorlanmıştım. Bayram harçlığım yoktu. Bir avuç büyüklüğündeki çantamda cevizli, lokumlu ve hurmalı olmak üzere üç adet külçeden başka hiçbir şeyim yoktu. Aynur ve İpek'e baktım. Ellerinde külçeleri, yemeye başlamışlardı bile. Yüzümde buruk ama sahici bir gülümseme belirdi. Benim baktığım gözle bakmıyorlar mıydı, yoksa bakıp da görmüyorlar mıydı? Bunu anlamama imkân yoktu. Ancak kızkardeşlerimin gözlerindeki mutluluk bana bir şeyler anlatıyordu. Fedakârlık, sabır, umut, şükür… Bu, onlardan öğrendiğim ilk dersti. Elimi çantama götürdüm, bizi uzaktan izleyen babama baktım. İçimden ona doğru koşup, boynuna sarılmak geldi. Külçelerden birer ısırık alıp, geri kalanını ona vermek için tekrar çantama koydum…

16 Bayram külçeleri mutlaka yakın akrabaların veyahut da komşuların tek bir evde toplanmasıyla yapılır. Bu durum eskiden yardımlaşma amacıyla yapılmış olsa da günümüzde bir gelenek haline gelmiştir.

17 Altunköprü'de Kerkük'e yakın olan bölge.

18 El yapımı ev süpürgesi.

19 O şeye fazlasıyla sahip olmak.

20 Irak Türkmenlerinin millî kıyafeti.

Nihâl Mirdoğan

# Kerkük

Bir Hoyrat duyulur Kerkük ilinden
Daşımla, torpağım altun der Kerkük
Gamım görülmez mi Türkmenelinden
Gözlerden dökülen yaşundur Kerkük

Mahşer günü kimi, yanan sıcağım
Dayandım daha da dayanacağım
Ben,vermirem yâda hep kalacağım-
Uğruna ölesin başundur Kerkük

Esaret kapladı baştan aşağa
Petrolün uğruna girince bağa
Basa basa çakkal dolunca dağa
GökTürk gibi çatan kaşundur Kerkük

Nanca mücadele veren milletim
Türkmen ocağında kaldın mı yetim
Dem günde kimseler demesin bittim
Bu yollar bayrağa koşundur Kerkük

Yohtur atalarda korkunun aslı
'Hara gidim' deme gökbörü nesli
Türk'lüğe yeniden açarsak faslı
Kanın, dirhem dirhem döşündür Kerkük

Şüphe götürmez, sen bir Türk şehrisin
Soydaşım, öz be öz Aras bahrisin
Yanlışın yohh sen ki dimdik doğrusun
Mâzideki şânın düş'ündür Kerkük

Asırlardır Haçlı, başın eğince
Hele ki Türk'ler el ele değince
Tâ tarihten yağız at kişneyince
Kırbaçı şaklatan, meşindir Kerkük

## İlahə Bayundur

# Niye Gelmedin?

Senden ayrılalı günler il oldu,
Hasret yağmurları kalbime doldu.
Kara saçlarımı külekler yoldu,
Gözlerim dörd oldu, niye gelmedin?

Bana gel-gel dedin, kendinse gitdin,
Zülmete, dumana karışıb itdin,
Yine hayallerden bana el etdin,
Gözlerim dörd oldu, niye gelmedin?

Resmini hasretle basdım bağrıma,
Melhem idi qasnak tutmuş yarama.
Bar vermedi becerdiyim barama,
Gözlerim dörd oldu, niye gelmedin?

Deryada tufana qerq oldu gemim,
Ondan sonra coşdu, çağladı qemim.
Ağılar söyledim, yoxdur hemdemim,
Gözlerim dörd oldu, niye gelmedin?

Yaralı kalbime qam gülü ekdin,
Ne vaxt çıçekleyer? Gözümü dikdim,
Derdi derd üstden yükledin, çekdim,
Gözlerim dörd oldu, niye gelmedin?
Gözlerim dörd oldu, niye gelmedin?

## Zəhra Həsimova Elman

# Afaq Məsud'un Hekayələrində Ekzistensializm

"Bəzən mənə elə gəlir ki, nə isə, ayrı bir işlə məşğul oluram. Bəlkə də bu, heç ədəbiyyat deyil". Azərbaycan ədəbiyyatının yazıçı və ədəbiyyatşünas ailəsində dünyaya göz açmış yazıçı-dramaturq və görkəmli nəsr ustalarından olan Afaq Məsud müsahibələrindən birində "Niyə məhz ədəbiyyat?" sualına yuxarıdakı cavabı verərək əslində ədəbiyyatın insanın ucsuz-bucaqsız dərinliyinə nüfuz edən əvəzsiz vasitə olduğunu açıq şəkildə ifadə etmişdir. Tələbəlik illərindən etibarən yazmağa başladığı hekayələrində insan , onun taleyi, daxili-mənəvi aləmi, yaşam və ölüm arasındakı incə xətti kiçik detallarla bəzəyən Afaq Məsudun "II İohan" , "Müdir", "Alman kilsəsi", "Gecə" , "Qonaqlıq", "Bekar", " Çovğun" "Telefonda işıq", "Can üstə", "Üçüncü mərtəbədə", "Oğru", "Ədalət", "Tək", "Uydurma", "Sərçələr", "Dovşanın ölümü", "Su" və s hekayələrində "insan və cəmiyyət" arasındakı münasibətlər fonunda insanın ekzistensial dəyərlərini ayrı- ayrı problemlər müstəvisində təsvir olunur. Bundan başqa qeyd etmək lazımdır ki, yazıçının hekayələrində "həyat–ölüm", "insan mahiyyəti" kimi dialektik məfhumlar da ehtiva edilmişdir.

Ekzistensializm 19-cu əsrin ortalarında dominant sistematik fəlsəfəyə qarşı reaksiya olaraq yaranmışdır. Sören Kyerkeqor özü heç vaxt bu termindən istifadə etməməsinə baxmayaraq, ilk ekzistensialist filosof kimi qəbul edilir. Ekzistensialistlər, düşüncələrini dolaysız olaraq öz şəxsi həyatının bir aspektini aydınladan romanlar, dramalar və gündəliklər ilə təsvir edirlər. Ekzistensializmə görə, hər şey insanın özü ilə başlayır və bitir. İnsan situasiyaya görə deyil,

situasiya insana görə dəyişməlidir. Bu fərqli situasiyalarda isə insanların öz duyğu və davranışlarına görə mövqe və düşüncələri izah edilir. Azərbaycan ədəbiyyatında da bu Qərb fəlsəfəsinin təsirinə sonrakı dövrlərdə rast gəlinməyə başlamışdır. Qəhrəmanın ölüm qorxusu, pessimist ruhu , ətraf aləmə özgələşməsi və bu özgələşmədən doğan tənhalıq, azadlığa meyillilik, ətrafındakıları önəmsəməməsi ədəbiyyatımızda ekzistensial elementlərin səciyyəsini müəyyənləşdirir.

Hər bir millətin çağdaş nəsrində, bədii mətnlərində dünya ədəbiyyatının minilliklər boyu keçdiyi hadisələr, rastlaşdığı təbəddülatlar zaman keçdikcə bir daha qarşıya çıxır, özünü qabarıq bir şəkildə yansıdır. Avropa ədəbiyyatında XIX əsrin ortalarında yaranan, ədəbiyyatımıza isə müstəqillik illərində nüfuz etməyi bacarmış ekzistensial dəyərlər Afaq Məsudun qəhrəmanlarını da əhatə edir. Ekzistensializm – Azərbaycan ədəbiyyatında qərar tutmayan, Avropa ədəbiyyatı üçün isə doğma sayılan və yeni dünyagörüşü yaratmaq cəhdi kimi meydana gəlmiş irrasional, subyektiv, idealist, ədəbi-fəlsəhi cərəyandır. Məlumdur ki, ekzistensial dəyərlər şəxsi varlıqdan başlayır. Afaq Məsudun qəhrəmanları da bu dəyərlər çərçivəsində hərəkət edirlər. İnsanın varlıq ilə yoxluq arasında həqiqət arayışındakı bir "mən" , dünyanın isə bizi Allahdan ayıran sədd deyil, ona qovuşduran körpü olması kimi fikirlər obrazların daxili dünyasının əsasını təşkil edir."

Yazıçının "II İohan" hekayəsində artıq varlıq və ölüm arasındakı insan həyatının mahiyyətini dərk edən Papa və hələ də öz "MƏN" inin axtarışında olan iki dost obrazı təsvir edilir. Yaşı ötmüş, ayaqda dura bilməyən Papanın ömrünün son çağlarında adı çəkilməyən və xristianlıq ilə heç bir əlaqəsi olmayan ölkəyə gələrək məhz bu ölkədə dünya müsəlmanları və xristianlarına müraciət etmək istəyini onun varlığın əbədiyyətinin dərk etməsi ilə əlaqələndirmək olar. Dini ekzistensializmə görə, insan ruh və bədənin, əbədiyyət və sonun, müvəqqəti və qalıcının, azadlıq və zəru

rinin bir sintezidir.” Buna görə də, insan

tamamlanmış bir varlıq deyil. İnsanın tamamlanması isə tanrıya qovuşmaqdır, başqa bir deyimlə, “mən” ini tapmaqdır. Papa hər ikinin nümayəndələrinə müraciət edərək bu dinlərin birləşməsini xoşbəxtliyə — “həqiqət” ə çatmağın yeganə yolu olduğunu qeyd edir. Hekayədə ,eyni zaman, çərçivəsində “bədənlə ruh”, “gizli ilə aşkar” , “şüur və duyğu” kimi əks qütbləri xarakterizə edən iki dost obrazı oxucuya müxtəlif nöqteyi-nəzərdən baxmağa imkan yaradır. Bu məqamda ekzistensializmin “azadlıq və ümidsizlik” elementlərinin sanki bir qarşıdurmasını görürük. Ümidsizlik insanın azadlıq elementi ilə bağlıdır. İnsanlar azad olduğundan, onlar daimi bir seçim ilə qarşılaşırlar. Varlıq prosesində insanlar “mən” olmaq istəyirlər və ya “mən” olmağın məsuliyyətindən çəkinirlər. Əgər insan “mən” ,başqa bir sözlə, özü olmaq istəsə, mütləq öz məhdudiyyətləri ilə qarşılaşacaq və ümidsizliyə düşəcəkdir. Əksinə, bir şəxs özü olmağı qəbul etmirsə, özündən başqası olmağa çalışacaq və bunun nəticəsində daha çox ümidsizliyə düçar olacaq.” Havasız və əşyalarla dolu olan salonlara aludə olub monoton həyat tərzi sürən qəhrəmanın bu mərhələyə qədərki keşməkeşli yaşayışı , əzabları və daxili-mənəvi aləmi ilə arasındakı divarlar onun əvvəllər yazdığı şeirlərdəki sözlərin yarada biləcəyi duyğulardan — onu keçmiş həyatına bağlayan “mən”indən qaçmasına gətirib çıxarır. Qısaca, insanın bir sistem və ya məfhuma bağlılığı onu bir çox gerçəkliyi görməzdən gəlməyə vadar edir. Yazıçı həmçinin divarlarla əhatələnməyən insanın fərqində olmadan içərisindəki xislətinə də işarə etmiş, ona edilən, mənəvi dünyasını itirməsinə səbəb ola biləcək təklifə duyulan bir anlıq məmnunluğu vurğulamışdır.

Hər nə qədər fərdi yaradıcılıq məhsulu olsa da, yazıçının hekayələrində yaşadığı dövrün mənəvi-əxlaqi dəyərləri , cəmiyyət və mövcud şərtlərin təsiri də aydın şəkildə təsvir olunur. Yazıçının “Müdir” hekayəsində iki fərqli “mən” arasında qalmış qəhrəmanının güclü psixoloji təməllərə əsaslanan hadisələr fonunda “həqiqət” axtarışı təsvir olunur. Ekzistential və sürrealist ideyalarla işlənmiş qəhrəmanın daxili aləmi ilə çarpışmaları simvolik çalarlarla oxucuya

təqdim edilir. Sürrealizmə xas olan sayıqlama, yuxu və gerçəklik arasındakı sərhədlərin aradan qalxması faktları hekayədə diqqət çəkən məqamlardandır. İşdə tanış olduğu “Müdir” i ilə yuxularında görüşən obraz ailəsi ilə arasına sədd çəkir, hətta həyat yoldaşını öldürməyi belə düşünür. Nitsşenin “əxlaq” konsepsiyası mövqeyindən çıxış etsək , düşüncənin mərkəzində insanın yerləşdiyini görərik. Ekzistensializmə görə, insan seçimləri ilə, özünü formalaşdırmaqla azadlığı əldə edə bilər. İnsan ömür boyu mövcudluğuna nəyin yaxşı, nəyin pis təsir etdiyini müəyyən etməyə çalışır. Əgər bir fərd özü üçün zərərli olanı seçirsə və ya üstünlük verirsə, bu zaman “əxlaq” elementindən kənara çıxmış olur.” Hekayənin qəhrəman bu qarşıdurmalar vəziyyətində daxili “mən”i ilə əlaqəsini itirmir, daim “bəlkə”lərdən istifadə edərək mübarizə edir. Sonda isə arvadının gözlərində absurd həyatının yansımasını görür. İnsanın ətraf aləmə , hətta ailəsinə yadlaşması prosesinə “Çovğun” hekayəsində də rast gəlirik. Səkinə və Qafar obrazlarının bir- birinə olan münasibəti bunun bariz nümunəsidir. Hər iki obraz keçmişdən gələn narahatlıqları bir-birləri ilə paylaşmayaraq bu yadlaşmanın təməlini əks etdirirlər. Onların gün ərzində görüləcək işlərin çox olmasına sevinmələri mühitin insanın daxili aləminə təsir edərək fiziki deyil, mənəvi uzaqlığın necə yaratdığını göstərir. “Çovğun” hekayəsində Qafar kişinin ahıl yaşında təmtərağın mənasızlığını dərk etməsi “II İohan” dakı Papa II İohan Paveli yadımıza salır. O da gəldiyi ölkədə iqamətgahdan imtina etmişdi. Belə məqamda, “üst insan” anlayışını xatırlamaq lazım gəlir. İnsanın seçimləri özünə məxsusdur. İnsan qorxaq və ya cəsur, ağıllı və ya axmaq olmağı seçə bildiyi kimi , maddiyyatla mənəviyyat arasında seçim etməkdə də azad-

dır. Həmin seçimlər azad fərdin təbiətini təşkil edir." Bu, hər iki obrazın maddi dünyadan əl çəkib həqiqət axtarışı ilə mənəvi dünyaya yönəlməsini göstərir. Mənəvi aləmə yüksəlib Tanrı qatına çatmaq ideyası Qərb fəlsəfəsində Nitsşenin "ali insan." Şərq fəlsəfəsində isə "kamil insan" olma yolundakı anlayışları Afaq Məsudun hekayələrində özünü açıq şəkildə göstərir. Unutmaq olmaz ki, insan həmişə özü düşündüyündən artıqdır və hər bir insan özünü aşıb ali və ya kamil insan zirvəsinə çatmaq üçün çalışmalıdır.

İnsan və mövcudluğu izah etməkdə ədəbi dilin zənginliklərindən məharətlə istifadə etməyi bacaran Afaq Məsud ekzistensial simvolizmin müxtəlif çalarları ilə süslədiyi "Gecə" hekayəsində yuxu, külək arxetipi, imitasiya kimi mifoloji ünsürlərə yer verməklə folklor elementlərini daxili-mənəvi aləmi əks etdirən ayna kimi göstərmişdir. Yuxu hekayədə mənəviyyata açılan qapını, ölümdən sonrakı ölümsüzlüyü simvolizə edir. Hekayənin qəhrəmanı Talıb kişinin yuxuda gördüyü ağ saqqallı və ağ geyimli kişi bizə folklordakı Xızır obrazını xatırladır. Tədqiqatlarda «suyun külək və havanın himayəçisi» kimi təqdim olunan Xızır dastanlarımızda aşiq və məşuqun yuxusuna girərək onlara eşq badəsi içirdir , yalnız bundan sonra dastan qəhrəmanı haqq aşığına çevrilir. Talıb kişinin yuxusunda onu ucsuz-bucaqsız ağ səhraya aparan və qeybə çəkilən bu nurani obrazını haqqa və həqiqətə məhz Xızırın köməyi ilə çatmaq motivi ilə müqayisə etsək, ruh və bədənin sintezi olan insanın maddi – mənəvi aləm ortasında sadəcə bir vasitə olduğunu görmüş oluruq. Hekayədə diqqəti cəlb edən məqamlardan biri də külək arxetipidir. Külək dünyanın yaranmasında nizamlayıcı, təkan verici funksiya daşıması ilə bilinir. Əsərdə külək ölümü simvolizə edir. "Külək nəsə istəyir" cümləsi və Talıb kişinin ölümündən sonra çovğunun bitməsi bunu açıq şəkildə göstərir. Ölümün dünyanın axarını, onun nizamını təşkil etməsi və Talıb kişinin həmin küləyin uğultusunu yuxu ilə gerçəklik anlarında eşitməsini obrazın mövcudluq ilə ölüm arasındakı imitasiyası adlandırmağa imkan verir. Hekayənin qəhrəmanın ölümü ilə yox, yazın gəlib yağışın yağması ilə bitməsi obrazın maddi və mənəvi aləm arasındakı imitasiyası ideyasını bir daha təsdiqləmiş olur. Bunun üçün xüsusilə yaz ayının seçilməsi də təsadüfi görünmür. Yaz ayı mifoloji tədqiqatlarda təkanverici qüvvə kimi həyatın yenilənməsi, keçid dövrü kimi xarakterizə olunur.

Nəticə etibarilə, Azərbaycan ədəbiyyatının görkəmli nəsr ustalarından olan Afaq Məsudun hekayələri istər ümumi məzmunu, istərsə də ən xırda detalları ilə "maddiyyat ilə mənəviyyat", "yaşam ilə ölüm", "varlıq və heçlik" kimi

ekzistensial dəyərləri oxucuya çatdırmağa, onların insanın daxili aləmi, düşüncənin davranışlar ilə ziddiyyət və bağlılıqları haqqında fikrə yiyələnmələrinə nail olmuşdur. Ekzistensializmin formalaşması ilə birlikdə insan narahatlıq, qorxu, qayğı və seçimləriylə mövcudluğu tamamlamağa çalışan azad varlığa çevrilmişdir. Sonda isə bizi maraqlandıran bir sual meydana çıxır : " Bəs əsl azadlıq varmı?". Əgər "azad insan" konsepsiyasına fərdin fiziki davranışlarından asılı olaraq deyil, mənəvi duyğu və düşüncələrin nəzdində baxsaq, yazıçı-dramaturq Afaq Məsudun hekayələrindəki qəhrəmanların "mən" ən məhbus olduğunu görmüş olarıq ki, bu da Nitsşe fəlsəfəsinin "mən" içində "mən" ideyasını ağıllara gətirir. Hər halda, əgər insan nə olduğu barədə biliyə malik olduğunu hesab etsəydi, ekzistensialist fəlsəfə dərhal məhv olmuş olardı.

Mələk İsmayıl

# Ay Şeir

Sətir-sətir yazılırsan,ay şeir,
Yaxşı-yaman yozulursan ,ay şeir.
Təbin göydən gəlir,mələklər deyir,
Müxəmməs,gəraylı, sərbəst, qoşmasan,

Su kimi axanda şirin olursan,
Sevilib ürəyə,qəlbə dolursan.
Könül oxşayırsan,saçı yolursan,
Bayatı,qəzəlsən deyilsən asan.

Hörmətin böyükdür söz meydanında,
Sözə qiymət verən qanan yanında.
Şair var sözünü deyir anında.
Yazmaq olmur qaynamasan,daşmasan.

Nizami dünyanı sözlə mat qoydu,
Dastanlar yaratdı neçə ad qoydu.
Dərin dərk eylədi həyatı duydu,
Yadda qalacaqsan,könül oxşasan.

Çoxda ki,çoxalıb indi yazanlar,
Nəbzi tuta bilmir yolu azanlar.
Ələkdən keçirir ustad ozanlar,
İstərəm sevilib qəlbə dolasan.

Dərdim,sərim çoxdur yanır ürəkdə,
Yaxşı ki,sən varsan yazır Mələk də.
Ömrü-günü keçir fitnə,kələkdə,
Beləcə həmişə həmdəm olasan.

Səbinə Yusif

## “Sən Mənim Duamsan”

Allah eşqinə, bundan sonra bir-birimizin əlini buraxmayaq!

-Biz səninlə zamansız rastlaşdıq, Yusif.

-Zamansız deyil. Vaxtında rastlaşdıq. Sən zamansız deyirsən.

-Gecdi artıq. Qatar keçib. Nə qədər qaçsaq da, çata bilməyimiz mümkün deyil. Mən sizin evdə arzuolunmayan insan kimi yaşaya bilmərəm.

-Həyatda mümkün olmayacaq iş yoxdur -tək ölümdən başqa. Mən səni ölümünə sevdim.

Onlar söhbətlərini davam edirdilər. Ürəklərində olan nisgilə, həsrətə etdikləri söhbət dərman deyildi.

-Sənin şərəfin, amalın o qədər müqəddəsdir ki, Yusif!

-Sənin dürüstlüyünün heyranıyam! Əlini tut əlimdən. Söz verirəm, səni xoşbəxt edəcəm!

-Gecikmiş sevgi əlçatmaz qalmalıdır.

-Heç nə gec deyil!

Artıq şər qarşmışdı. Göz-gözü görmürdü. Parkda onlardan başqa kimsə qalmamışdı. Hamı evinə getmişdi. Onlar isə nə əl-ələ tuta bilirdilər, nə də ayrıla bilirdilər.

“Bu sevgi hardan gəldi başıma, bu, nə iş idi düşdüm”, -deyə-deyə Aydan ayağa durdu. Yusif isə gözlərini Aydanın gözündən ayırmırdı.

-Demək sən məni sevmədin, ay üzlüm.

-Mən sənə aşiq oldum. Vuruldum. Sən mənim Vətən Eşqim, yurd sevgimsən! Bundan gözəl sevgimi var?

-Əgər sevsəydin…

-Axı sən nə biləsən mən nələr çəkirəm. Bu eşq məni xəstə saldı. Sən yenə də inanmadın.

-Mən sənə özüm kimi inanıram. Ay üzlüm, sənə söz verirəm, biz xoşbəxt olacağıq.

-Bu, mümkün deyil. Sən də yaxşı bilirsən!

-Niyə mənə inanmırsan? Mənə inan. İnan ki, səni çox sevirəm.

-Sənə inanıram, Yusif. Ancaq ailənizdəki istək sən deyəni demir.

-Yaxşı, sabah ön xəttə yollanıram. Söz ver ki, yolumu gözləyəcən.

-Qartal baxışlım, mən səni tək bu dünyam üçün deyil, o dünyam üçün də sevdim. Əgər o dünyada mənə öz yarını seç deyə, bir seçim verilsəydi, yenə də səni seçərdim.

Yusif Aydanı evlərinə kimi ötürdü. Qapının önündə Aydan Yusifin boynuna sarıldı:

-Vətən qoxulum, qartal baxışlım, yolunu gözləyəcəm. Səni çooox sevirəm. Mən səni sevdiyim qədər kimsəni sevə bilmədim. Yenə də səni düşünərək ayrı yaşamağımıza qərar verirəm. Elə bilirsən mənə asandır? Xeyr, çətindir! Çox çətindir. Mən sənin yolunda fədakarlıq edirəm, Yusif! Axı sənin…

-Heç nə söyləmə, ay üzlüm. Səni çooox sevirəm!

Onlar sağollaşıb ayrıldılar. Yusif siqareti yandırıb maşına əyləşdi. Aydan isə liftə necə daxil olduğunu, evin qapısını necə açdığını belə, unutdu. Bir də o zaman ayıldı ki, hamam otağında əllərini yuyur, güzgüyə nəzər edəndə qızaran gözlərindən yağan həsrət yağışını müşahidə etdikcə daha da bərkdən ağlamağa başladı.

Yusif isə maşında siqareti siqaretin arxasınca yandırır. Hər siqaret bitəndə özünü bitmiş hesab edir. Həyata tutunmaq üçün yenidən siqaret yandırırdı. Maşını həyətdə saxladı. Yavaş-yavaş pilləkanları qalxmağa başladı. Anası gülə-gülə qapını açdı.

-Balama qurban olum, nə yaman gec gəldin?

-İşim var idi, ana.

-Görürsən bunları?

-Bunlar nədir ana?

Yusif qonaq otağında bəzədilmiş xonçalara baxanda sanki onu ildırım vurdu.

-Anan boyuna qurban, sabah dayıngilə gedəcəm. Nigarın ad günüdür. Həm təbrik üçün, həm də üzük taxacam. Əlimizdə böyüyüb. Tərbiyəli qızdır. Dayınla da danışmışıq. Nigar da razıdır.

-Ana, sabah elçi gedirsən, ancaq mənim razılığım olmadan.

-Sən ananın ağıllı balasısan. Sözümdən çıxmazsan.

-Ana, mən bu evliliyə razı deyiləm.

Yusif sözünü deyib yataq otağına keçdi. Ağzıüstə necə uzandısa, elə də yuxuya getdi. Gecə saat 3-də həyacan siqnalı verildi. Yusif cəld oyanıb hazırlaşdı. Ailə üzvləri ilə sağollaşıb yola düşdü. Hərbi heyət Cəbrayıl istiqamətinə göndərildi.

Aydan yuxudan oyandı. İnternetə baxdı. Dostlarından biri “Qarabağda döyüş başlayıb” yazısı adı altında xəbər paylaşmışdı. Xəbəri oxuyub qurtardıqdan sonra diksindi. “Yusif!Yusif! Yusif!”, -deyə öz-özünə qışqırmağa başladı. Telefonu götürüb Yusifə zəng etdi. Yusifə zəng

çatmırdı. Aydan ağlayırdı. Necə də olsa, Yusifdən xəbər tumağa çalışırdı. Onun ən yaxın dostlarına zəng etdi. Nə Aqşinə, nə də Rüstəmə zəng çatdı. Aydan təkrar qayıtdı ki, internetdən xəbərləri oxusun. Artıq internet də kəsilmişdi. Evdə dəli olacaqdı sanki.

Həyətə düşdü. Qonşulardan yeni bir xəbər öyrənməyə çalışdı. İnsanlar müharibə başlayıb deyə, sevinirdilər. Hamı bir nəfər kimi: "Müharibəyə aparsalar, mən də gedərəm" deyirdi. Aydan həyətdə olan insanlardan da Yusifin yerini öyrənə bilməyəcəyini anladı və evə döndü. Televizoru açdı. Xəbərlər başlamışdı. Jurnalist xanım sevinclə, göz yaşları içində Füzuli və Cəbrayılın kəndlərinin işğaldan azad olunması xəbərini deyirdi: Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər işğaldan azad olunub. Aydan sevinirdi. İnanırdı ki, qazanılan qələbədə Yusifin də payı var.

Xəbərlər bitər-bitməz Yusifdən mesaj gəldi: "Salam, ay üzlüm. Narahat olma, düşməni məhv edirik. Qələbə bizimdir".

Aydanın üzü güldü. Əllərini Göyə açıb dualar etməyə başladı. Rəfiqələri ilə əlaqə saxladı.

-İnternet kəsildiyi üçün narahatam. Cəbhədən gələn xəbərlərdən məlumat almaq çətin olur.

-Aydan, yəqin xəbərlərdə deyiləndə eşitdin. Vəziyyətlə əlaqədər Azərbaycanda internetə məhdudiyyət qoyulub. Ancaq xarici şəbəkələr üzərindən internetə qoşulmaq mümkündür.

Aydan Gülçindən intenetə qoşulmağı öyrəndi. Hər an, hər dəqiqə internetə daxil olur, xəbərləri öyrənməyə çalışırdı.

44 gün Aydanın ömrünə 44 il kimi yazıldı. Canından çox sevdiyi Yusif üçün hər an dua edirdi. Hər Şəhid xəbəri eşidəndə Aydanın dizləri əsir, taqətdən düşürdü. Ali Baş Komandan İlham Əliyevin çıxışlarını diqqətlə izləyir. Rayonlar işğaldan azad olunduqca Aydanın sevinci aşıb-daşırdı.

8 noyabr 2020-ci il. Prezident İlham Əliyevin çıxışını Aydan səbrsizliklə gözləyirdi. Yusifdən 20 gündən artıq idi ki, heç bir xəbər yox idi. Aydan həyacanla televizorun qarşısında gözləyirdi. Ali Baş Komandan çıxışa başladı: "Əziz həmvətənlər, əziz bacılar və qardaşlar, böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi. Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm! İyirmi səkkiz il yarım işğalda olan Şuşa azad edildi. Şuşa indi azaddır. Biz Şuşaya qayıtmışıq. Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq".

Aydan sevincdən hönkürtü ilə ağlamağa başladı. Öz-özünə Yusiflə danışmağa başladı: Yusif, 44 gündür sənin adına yazdığım sətirlər hərdən yaş olub gözlərimdən axır, hərdən də ox olub ürəyimə batır. Yolunu gözləyirəm. Hardasan?

Göz yaşları içində telefonu əlinə götürdü. Yusifə mesaj göndərdi: "Qartal baxışlım, hamıdan xəbər çıxdı. Səndən xəbər çıxmadı".

Şərəfli döyüş yolu keçmiş Yusif Şuşada idi. Azad olunan evlərin birində döyüş dostları ilə bərabər oturmuşdular. 30 illik həsrətdən sonra Şuşadakı evlərə Azərbaycan oğullarının qədəm qoyması tarixi hadisə idi. Telefonun enejisi bitdiyindən Aydanın mesajı Yusifə çatmamışdı. Dostlarından "powerbank" aldı. Telefon enerji yığdı. Yusif telefonu açdı. Aydanın mesajı gəldi. Dərhal cavab yazdı: "Məndən nigaran qalma, Aydanım. Çox Şükür. Şuşamız!" Aydan mesajı oxuyan an gözlərinə işıq gəldi. Dərindən nəfəs aldı. Sanki dünyaya yenidən gəldi. Allaha dualar etməyə başladı.

Müharibə bitdikdən bir ay sonra Yusif gəldi. Şuşanın qarlı, əzəmətli dağlarından Aydana bir ovuc Vətən torpağı gətirmişdi. Aydan Yusifi möhkəm-möhkəm qucaqladı: "Daha sənin əlini buraxa bilmərəm, Yusif!"

Elə bu vaxt anası Yusifə zəng etdi.

-Hardasan ay oğul, qohum-əqraba yığışıb səni gözləyir.

-Gəlirəm, ana.

-Gəl, anan qurban. Sənə elçi gedəcəm.

-Ana, bu dəqiqə o söhbətin yeri deyil.

-Bilirəm oğlum, niyə elə deyirsən? Əsəbləşmə. Niyyət etmişdim döyüşdən sağ-salamat qayıt, sevdiyin qızı alacam sənə. Şükür Allaha sağ-salamat qayıtmısan. Gəl, elə bu saat Aydangilə elçi gedəcəm.

-Gəlirəm, ana!

"Sən mənim aşiq olduğum insansan. Allah eşqinə, bundan sonra bir-birimizin əlini buraxmayaq", -deyən Yusif Aydanı bərk-bərk qucaqladı!

## Ayşe Ünüvar

# İçiyle Yol Bulanlardan Ol

Her yere her şeye ve herkese uzun geldi bizim cümlelerimiz! Anladık da anlaşılmadık vesselam… Sus! Dedi iç sesim. SUS! Herkes her konuşmayı anlamıyor. Anlasa da anlamazdan geliyor, pratik fayda almış başını gidiyor. Anlayamadım demek faydalı, kimseyi ne kırıyor ne incitiyor. Anlamak emek istiyor. Emek vermek, ter dökmek, zaman ayırmak çıkmış lügatlerden.

Zaman hız, haz, saz çağı! Hikayesi derin şeyler, zamanın gerisinde kaldı denilerek elin tersiyle itiliyor. Emekleyeni, tökezleyeni, düşeni fark etmiyor kimse. Etse de dönüp bakacak zaman yok! İnsan daha hızlı koşmalı, konuşmalı, kaos yaratmalı…

Bir adım bile geride kalma hakkının olmadığını anlayan beşer elbette şaşırıp kalıyor ve çareyi töresinden, ilkesinden, değerinden caymak da buluyor! Tam da burada sosyal uyum önemli. Geri kalmıyor hemen uyuyor, çoğunluğun istediği ses olmak, doğru olan yol gibi görünüyor. Böylece aynılaşıp birbirimize benziyoruz. Benzemek iyi geliyor, görmüyor, duymuyor, fark etmiyoruz! Peki ama doğru gidiş hangisi? Renk algımızdan çok renkleri kaybediyoruz. Hakikate giden yoldan epey uzaklaştık, üstelik bu umurumuzda da değil…

Arınmak, içine kulak vermek isteyenlerin dünyası daraldı. Her yer çiçek kokmuyor ve insandan uzak. Duru bir su, durulanmış bir gökyüzü hayal oldu. Bilge bir ağaca sırtını yaslayıp olana, olmuşa, olacağa kafa yormuyor kimse ama yoran gerek! Düşünen, tartışan, yola koyup, yola koyulan gerek! Peki ama nasıl? Yol nerede, hangi adımla, nereye kadar adımlamak zamanın hoyrat gölgesini çitileyip paklar?

İnsan ne vakit bu soruları sorar kendine? Hoş kendinde midir insan? Nereye yürür? Yürüdüğü ya da yürüyeceği yola düş diyen aklı mıdır? Gönlü müdür? İçi midir? Ne vardır insanın içinde? Ya da içindeki neyi kaybedeli yolu kaybeder oldu insan? İçinde kaybettiği hangi şey zamanı karartı, gölgeyi eğriltti, vefaya körnami etti insanı? Çağa bu lekeyi süren insanın ta kendisi değil mi? Peki insan; bizim dışımızda kalan herkes mi? Biz değil miyiz o insan? Çağın cümlelerini yazan da bozan da insan! O insan biziz. Sen, ben, öteki, beriki, biz, siz, onlar…

Bir yerlerden bir şeylerden kaçarak, hep eleştirip elimizi taşın altına koymaktan sakınarak yaptık bunu… İçimizde yüzüp gezeceğimiz denizleri yok ettik önce, ağaçları kestik kökünden, çiçekleri hunharca ezdik! Kokular! Her şey aynı mı kokuyor, bana mı öyle geliyor? Aynılık insana has değil; şeyleri de aynılaştırdı insan ve çıkıp oturdu baş köşeye!

Aynı değil dediğin ne varsa düşün ve sarıl ona! Düşün ve onayla… Ya da içindeki kaybı bul! Niyetin saflığı var eder ve insan kılar seni! Bak işte kaybettiğin ana etmen, SAFLIK! Niyet saflığı, hal saflığı, düşün saflığı, emek saflığı, İNSAN SAFLIĞI! Bul o kaybettiğini! Yoksa içiyle yol bulanlardan saymaz da kenara atıverir zaman seni…

## Go’zal Ismatova

# Taqdır Azal

“Taqdir azal” dedik, ayrildik ketdik.
Majrux qalblarimiz, qabrga eltdik.

“Janozasin o’qib”- ko’nginlarimiz,
Balki tinchir endi yaqinlarimiz.

Go’yo Majnun eding, men edim layli,
Endi ketaqolgin, boraqol mayli!

Baxtli bo’lgin yorim, mening uchun ham,
Nega bugun endi ko’zlarimda nam?

Endi yig’lamayman, o’kinmam aslo!
Shunday yaratilgan, bu bir kam dunyo!

Endi kuyunmagin, qilmagin nido!
Taqdirimiz bitgan, yaratgan Xudo!

Mətanət Hüseynxanqızı

# Nəğmələşər Bu Dünya

(Sevinc olar həmən günü bir röya,
Ürəyində alovlansa bir ziya,
Şirin-şirin qəlbə dolsa bir xülya,
Nəğmələşər, aləm olan bu dünya.

Gəlib keçsə qabağından bir göyçək,
Əllərində tumarlanar bir çiçək,
Niyyət olub səpələnər hər ləçək,
Nəğmələşər, aləm olar bu dünya.

Bir görüşdə pərvaz olsa diləklər,
Qovuşanda bir olarsa ürəklər,
Baxışanda sevgi açsa bəbəklər,
Nəğmələşər, aləm olar bu dünya.

Bəzəsələr qaynatalar toy zalı,
Sevinc versə cüt cavanın hər halı,
Həzin-həzin çılanarsa vağzalı,
Nəğmələşər, aləm olar bu dünya.

Saxlamağa imkan olsa zamanı,
Qaytarmağa çalışarsan bu anı,
Xoş sözünlə əzizləsən bir canı,
Nəğmələşər, aləm olar bu dünya.

Bir ananın sakit yatsa körpəsi,
Evə dolsa gül ətirli nəfəsi,
Kəsilməsə qığıltının xoş səsi,
Nəğmələşər, aləm olar bu dünya.

Külək yaysa bir gəlinin laylasın,
Bir babanın şirin "ninay" çalmasın.
Oxşayarsa bir nənə də balasın,
Nəğmələşər, aləm olar bu dünya.

Bayram günü yaddan çıxmaz axşamlar,
Aşıb daşsa süfrələrdə bol camlar,
Xonçalarda əlvan yansa o şamlar,
Nəğmələşər, aləm olar bu dünya.

İl axırda biri düşər tez yada,
Açar qoyub niyyət tutsan o ada,
Ağrın-uğrun səpələnsə o oda,
Nəğmələşər, aləm olar bu dünya.

Göz sevinsə görüb bahar çağını,
Tumurcuqlu, əlvan güllü bağını,
Yaşıl örpək, lalə donlu dağını,
Nəğmələşər, aləm olar bu dünya.

Qızlar durub səhər tezdən gəlsələr,
O bağdakı bol məhsuldan dərsələr,
Ağ geyinsə o dərələr, oylaqlar,
Nəğmələşər, aləm olar bu dünya.

Naz eyləyib göydən yerə baxsa ay,
Ağ camalın şəffar suda yusa çay,
Bir gözəli oxşatsalar ona tay,
Nəğmələşər, aləm olar bu dünya.

Yavaş-yavaş qızararsa dan üzü,
Gülümsəsə şəfəqlərdə gün özü,
Qamaşdırıb göz vurdusa hər gözü,
Nəğmələşər, aləm olar bu dünya.

Sahillərə hey çırpınar ləpələr,
Dalğaları muncuq-muncuq səpələr,
Qayaları qucuqlayıb öpələr,
Nəğmələşər, aləm olar bu dünya.

Köç eyləyib, çadır qursan yaylaqda,
Əl üşüsə səhər tezdən bulaqda,
İşıq salsa axşam zərif çıraqda,
Nəğmələr, aləm olar bu dünya.

Səhər tezdən çoban çalsa tütəyi,
Meh tərpətsə təzə heşli çiçəki,
Doldurarsa quşəppəyi ətəyi,
Nəğmələşər, aləm olar bu dünya.

Dolu qazan xoş iy yaysa ocaqda,
O süfrədə bardaş qursa qonaq da,
Təbəssümlər pərvazlansa dodaqda,
Nəğmələşər, aləm olar bu dünya.